# “Xəzərin mühafizəsində birik, birlikdəyik”

## Yeni Azərbaycan Partiyasının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə bu devizlə təmizlik aksiyası keçirildi









**Dünən Yeni Azərbaycan Partiyasının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Xəzər dənizinin Buzovna sahilində “Xəzərin mühafizəsində birik, birlikdəyik” devizi altında kütləvi təmizlik aksiyası keçirildi.**



“Xəzər günü” ərəfəsində keçirilən və yüzlərlə insanın qatıldığı aksiyada məqsəd təkcə dəniz sahilini plastik və məişət tullantılarından təmizləmək deyil, həm də insanların çimərliklərin təmiz saxlanılmasına dair cəmiyyətə çağırışı, Xəzərin çirkləndirilməsinə etirazıdır.

Aksiyada Yeni Azərbaycan Partiyasının nümayəndələri, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları, Milli Məclisin deputatları, könüllülər, həmçinin “AzEkol” MMC, “Təmiz şəhər” ASC, “Azərsun Holdinq” MMC və Qafqaz Regional Ekoloji Mərkəzinin Azərbaycan ofisinin nümayəndələri iştirak edirdilər. İməcilikdə 10 hektar ərazi tullantılardan təmizləndi. Qeyd etdiyimiz kimi, əsas məqsəd Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin rolunu artırmaq və bu sahədə ictimaiyyətlə əməkdaşlığı gücləndirməkdir.







Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlarla iş komitəsinin sədri Siyavuş Novruzov təmizlik aksiyasının əhəmiyyətindən danışdı: “Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə Fəaliyyət planını təsdiqləyiblər. Biz ardıcıl olaraq həmin Fəaliyyət proqramı çərçivəsində tədbirləri həyata keçiririk. Bundan öncə gənclərin “Yay məktəbi” təşkil olundu. Bu gün gənclərin fəal iştirakı ilə iməcilik keçirilir. Növbəti mərhələdə daha bir layihənin icrası nəzərdə tululur. Bu tədbirlər dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin, həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırıqları əsasındadır. Biz belə tərkibdə çoxsaylı layihələr gerçəkləşdirmişik. Məqsəd çirklənmənin qarşısını almaq, hər zaman bizlərin qayğısını çəkən Xəzərə bu gün diqqət göstərməkdir. Xəzər hər birimizindir. Onu hər birimiz qorumalıyıq. Belə tədbirlərin maarifləndirici əhəmiyyəti vardır. Təbiəti qorumaq, ekoloji tarazlığın bərpasına, Xəzərin tullantılardan təmizlənməsinə, ən əsası çirklənmənin qarşısının alınmasına dəstək olmaq hər bir Azərbaycan vətəndaşının borcudur. İctimai xarakter daşıyan bu layihələr davamlı olacaq. Azərbaycan bu sahədə də nümunə göstərir. Ekologiya, ətraf mühit məsələləri hazırda bəşəriyyəti narahat edən problemlər sırasındadır. Avropa ölkələrində təmizliyin qorunmasına çağırış olaraq plastik butulkaların toplanması kampaniyasına başlanılıb. Biz bu gün keçirdiyimiz tədbirlə bunun nümunəsini göstəririk.”



YAP Siyasi Şurasının üzvü, Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev qeyd etdi ki, tədbirin keçirilməsində məqsəd Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına töhfələrimizi davamlı etməkdir.

O da bildirildi ki, “Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası” beş Xəzəryanı dövlət arasında təbiəti mühafizə şərtlərini və müvafiq təşkilati mexanizmi əks etdirən ilk hüquqi sazişdir. O, “çirkləndirən ödəyir” və məlumatın əldə edilməsi prinsipləri də daxil olmaqla bir sıra rəhbər prinsiplərə söykənir. Konvensiya Xəzər dənizinin ətraf mühitinin bütün növ mənbələrdən çirklənməsinin qarşısının alınmasına, həmçinin Xəzər dənizinin ətraf mühitinin mühafizəsi və bərpasına xidmət edir. Konvensiyada Xəzər dənizinin bioloji sərvətlərinin davamlı və səmərəli istifadəsinə, ətraf mühitə təsirin qiymətləndirilməsinə, ekoloji monitorinqə və elmi tədqiqatlara aid müddəalar əksini tapmışdır.

Konvensiya beş Xəzəryanı dövlət tərəfindən ratifikasiya olunduqdan sonra 12 avqust 2006-cı il tarixində qüvvəyə minmişdir. Bundan sonra hər ilin 12 avqust tarixi Xəzəryanı dövlətlərdə “Xəzər günü” kimi qeyd edilməsinə başlanmışdır.

“Xəzər günü”nün qeyd edilməsində əsas məqsəd Xəzər dənizinin ətraf mühitinin çirklənmədən qorunması, o cümlədən Xəzər dənizinin bioloji ehtiyatlarının mühafizəsi, bərpası, davamlı və səmərəli istifadə edilməsi və bu istiqamətdə əhalinin maarifləndirilməsindən ibarətdir.



F.Əliyev bildirdi ki, bugünkü tədbirimizdə də məqsəd Xəzərimizə hörmət və ehtiram olaraq onun qulluğunda dayanmaqdır: “İlin bütün gününü bizə diqqətini əsirgəməyən Xəzər ilin bir günündə bu qayğını bizdən gözləyir. Aksiya üçün seçilən deviz də məqsədlərimizə işıq salır. Bu, bütövlükdə böyük aksiyadır. Xəzər dünyada qapalı göldür. Ümumi ərazisi 380 min kv.km-ə, sahil zolağının uzunluğu 7 min km-ə yaxındır. Xəzərin 955 km-i bilavasitə Azərbaycanın ərazisinə daxildir.

F.Əliyev vurğuladı ki, dövlətimizin başçısı İlham Əliyevin sədrliyi ilə keçirilən bütün iclaslarda diqqət göstərilən əsas məsələlərdən biri ekoloji tarazlığın, ətraf mühitin qorunmasıdır: “Çünki hər bir ölkənin gələcəyi onun vətəndaşlarının sağlam mühitdə yaşamasından asılıdır. Məhz bu kontekstdən yanaşdıqda bugünkü tədbirə müxtəlif kateqoriyaya aid insanların toplanmasının da öz mənası vardır. Hansı peşəyə sahib olmalarından asılı olmayaraq onları bir məqsəd birləşdirir- Xəzərə hörmət və sevgi. Biz Xəzərimizi dəyərləndirməliyik. Bütövlükdə bu aksiyalar davam etdiriləcək. Hər il sentyabrın son həftəsində Beynəlxalq Dəniz Günü qeyd olunur. Həmin ərəfədə də Xəzərə həsr olunmuş müxtəlif tədbirlər keçiriləcək. Ümumilikdə beş Xəzəryanı ölkə arasında Azərbaycan yeganə ölkədir ki, Xəzərin mühafizəsinə kompleks yanaşır. Məhz bundan irəli gələrək Nazirliyin nəzdində Xəzər Ekoloji Monitorinq İdarəsi fəaliyyət göstərir. Hər həftə ərzində bu idarə tərəfindən müvafiq analizlər, müşahidələr aparılır, bir növ Xəzərin qayğısına qalınır.”

Nazir müavini dəniz ətrafındakı iaşə obyektlərinin sahiblərinə də müraciət etdi: “Təmizləyici qurğuların qurulması vacibdir. İş adamlarının bir qismi iaşə obyektlərində belə qurğular quraşdırıb, quraşdırmayanlara da müraciət edirik ki, belə qurğular quraşdırsınlar. Nazirlik olaraq təmizlənməmiş bir damcı suyun belə Xəzərə axıdılmasının əleyhinəyik. Çimərliyə gələnlər də yemək qalıqlarını dənizə atmasınlar”.

Bildirildi ki, Yeni Azərbaycan Partiyası ilə birgə imzalanan Fəaliyyət planı əsasında daha geniş miqyaslı tədbirlər keçiriləcək, Xəzərə dəstək göstəriləcək.

Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov bildirdi ki, Xəzər dənizi hidrometroloji rejiminin müxtəlifliyi, biomüxtəlifliyin zənginliyi, özünün unikallığı ilə Yer kürəsinin ən gözəl təbiət obyektlərindən biridir. Ona görə də Xəzər dənizi ilə yalnız onun ətrafındakı ölkələr, xalqlar deyil, bütün bəşəriyyət maraqlanmalıdır. Bu baxımdan da beynəlxalq təşkilatların Xəzər dənizinə diqqət və marağı yüksək səviyyədədir. Amma bu etirafı da etmək lazımdır ki, Xəzər dənizi öz faydasını daim sahilində yerləşən ölkələrə vermişdir. Təkcə sovetlər İttifaqının dağılmasından, Azərbaycanın öz dövlət müstəqilliyini əldə etməsindən, daha dəqiq desək, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı dövrə nəzər salsaq Xəzər dənizinin Azərbaycana qazandırdığı uğurları aydın görərik. “Əsrin müqaviləsi” Azərbaycana biri-birindən önəmli uğurlar gətirdi. Azərbaycanın malik olduğu təbii resurslardan səmərəli istifadəsinin nəticəsi olaraq davamlı inkişafı qaçılmazdır. Bu faktın özü Xəzərin sahilyanı ölkələrə böyük fayda gətirdiyini nümayiş etdirir. Xəzəri qorumaq hər birimizin borcudur.

Aksiyada Milli Məclisin deputatları Fəttah Heydərov, Eldar İbrahimov, Ziyad Səmədzadə və başqaları çıxış edərək, Azərbaycanın bugünkü uğurlarından geniş bəhs etdilər. Bildirdilər ki, dövlətimizin başçısı İlham Əliyevin təkmil islahatları, kompleks tədbirləri ölkəmizin hərtərəfli inkişafını şərtləndirir. Yeni-yeni hədəflərə doğru inamla irəliləyən ölkəmizin qarşısında açılan imkanlar, üfüqlər beynəlxalq baxışın yüksək səviyyədə formalaşmasında da əhəmiyyətli rol oynayır. Bu gün Azərbaycanın hər sahədə təcrübəsi nümunədir.

Tədbir incəsənət xadimlərinin çıxışı ilə davam etdi.

✍ **Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***“İki sahil”***